Yaşamaq eşqi

YAŞAMAQ İSTƏR

Yenə tərlan könlum pərvaz eyləyir,
Dövr edib, qonmağa bir budaq istər.
O bəzən vurular göy çəmənlərə,
Bəzən də pünhani bir otaq istər...

Mən qana bilmədim qəlbimi, düzü,
Düzdə eniş dilər, enişdə düzü,
Dağlarda hər zaman arandır sözü,
Aranda qaldımı, qarlı dağ istər.

Yağışda-yağmurda, qarda, boranda
Od, alov eşqilə yanır bir anda...
Yayın isti çağı bürkü vuranda,
Yanları yarpızlı bir bulaq istər.

Bəzən başdan aşır, dərdim, mələlım
Bozən bulaq kimi durulur halım.
Bir mələk eşqiylə şair xəyalım,
Bu dünya durduqca yaşamaq istər!..

YAŞAMAQ EŞQİ

Torpaq dedim, insan dedim,
Hər cümlənin başında mən.
Hey daşıdım bu dostları
Öz qəlbimdə, başımda mən...

Zaman-zaman səfər etdim,
Gah yaxına, gah uzağa;

Göyə çıxdım, aya çıxdım,
Yenə döndüm bu torpağa.

Torpaq dedim, insan dedim
Mən qələmə əl atanda,
Çünki duydum qüdrətimi
Bu torpaqda, bir insanda...

Gün diləyə darlıq edir,
Əziz tutun ömrü barı!
Çünki bizim insanların,
Çox böyükdür arzuları...

Əməyimiz bəhrə verər,
Zəhmətimiz getməz hədər...
Torpaq üçün, insan üçün
Dəyərimiz varsa əgər.

Təbiətdən, cəmiyyətdən
Bir balaca xahişim var:
ömrü, günü uzatsınlar!
Əlbir olub onlar məni,
Altmış il yaşatmışlar.
Əlli il də yaşatsınlar!

Bakı, 1965

BAŞLADI

Oylağımda boran qopdu bir zaman,
Dağ başını qar almağa başladı.
Qanadından yaralandı laçınım,
Turacımı sar almağa başladı.

Qapımızı döydü qara bir külək,
Bağçamızda nə gül qoydu, nə çiçək;
Payız fəsli şaxta vurmuş xəzəl tək,
İrzi-rəngim saralmağa başladı.

Zaman gəldi... üzümüzə doğdu gün,
Çiçəkləndi ilk baharı ömrümün,
Busat qurdu hər məhlədə toy, düğün –
Yar könlünü yar almağa başladı.

Güclü nə var bu dünyada el kimi?
Könlüm simi ötdü gümüş tel kimi,
Dövlət, nemət, qaynadıqca sel kimi
Yeri-yurdu var almağa başladı.

Qocalığı heç qaxmayın başıma,
Yeni çatır ömrüm əlli yaşına.
Ağ gün çəkdi sağ əlini başıma
Ağ saçlarım qaralmağa başladı.

Qazax, 17 dekabr, 1955

ÖZÜNƏ YÜKLƏDİM

– Bəxtəvər gör necə cavan qalıbdır –
Biri baxıb qibtə edirdi mənə:
Əllinci illərdə necə görmüşdüm,
Əsla dəyişməmiş, elədir yenə...

Dedim ki, eşitdim deyilənləri, –
Mən azca təmkinlə, azca vüqarla.
Yolumda bir anlıq ayaq saxlayıb,
Ona cavab verdim bu misralarla:

Bunun bir sirri var, bilsəydin əgər,
Bəlkə də sən məni təqlid edərdin.
Dərd ağır bir yüklə bizə gələndə,
Özünə yüklədim dərdini dərdin.

1978

ÖMÜR GÜNLƏRİ

Əgər bilməmişsən indi bil bunu,
Sonra unudarsan, yaxşı agah ol.
Cavanlıq getdimi qayıdan deyil,
O bir yol verilir hər ömrə – bir yol...

1976

PƏNCƏRƏ

Dünya pəncərədir, demiş atalar,
Şair də başladı dağdan, dərədən.
Yaşadı yetmiş il, nəhayət, bir gün,
O da baxıb getdi bu pəncərədən.

1976

NƏ OLAYDI...

Baxıb qarlı dağlara ötürürəm köksümü,
Nə olaydı, deyirəm, qayıdaydı gəncliyim.
Görünəydi bircə yol keçmiş hər ayım, ilim,
Çıxıb dərin dərədən dağlar aşa biləydim.

Nə olaydı, deyirəm, ömrüm təzələnəydi,
Qaynayaydı,coşaydı gənclik eşqim, vüqarım.
Qaralaydı yenidən bu ağarmış saçlarım,
Qocalıq illərində cavanlaşa biləydim...

1976

HEYKƏLƏ BAXIRDI

Bir gözəl gəldi keçdi,
Keçdi demək az olar,
o, su kimi axırdı.
Baxanları o ceyran
Naz ilə, qəmzə ilə,
yandırırdı-yaxırdı.

Gördü hamı boylanır,
Qoca baxmaq istədi,
eynəyi saldı, qırdı...
Qoca baxırdı, lakin
Elə bil buza dönmüş,
daş heykələ baxırdı...

1976

ÜRƏK YANMASA

Dərdi duyan bircə baş deyil, qardaş,
Ürək də anlayır, ürək də qanır.
İnsan bəzən elə dərdə düşür ki,
Ona daş dayanmaz, ürək dayanır.

İnsan işə düşür, çox əzab çəkir,
Ürək ağrıyarmı, bunu qanmasa?
Atalar düz demiş, gözəl məsəldir:
Gözdən yaş çıxarmı ürək yanmasa?

1976

QILIQ İŞƏ KEÇMİR

No olsun ki, söz veriblər... bəs könül?
Gərək desin öz sözünü ürək də,
Yalvarmaqla, yapışmaqla məhəbbət
Qanad açmaz... dustaq olar ürəkdə.

Sən ölçürsən saatları, günləri,
O, illəri heç ölçməyir, biçməyir.
Qılıq etmə, sonra saçın ağarar,
Saç ağardı, qılıq işə keçməyir...

1977

GÖZ VƏ ÜRƏK

Siz özünüz deyin, indi
Kimə gərəkdir, gərək,
Gözəlliyi görməyən göz,
Onu sevməyən ürək.

1981

EŞQİNƏ BİNƏMDİR

Deyirəm yanırdı, alovlanırdı,
Sənin ürək odun nə tezcə söndü.
Közərən kömürlər qaraldı, keçdi
Köç yerində qalan küllüyə döndü.

Deyirsən çırpınmır, qəriblik çəkir,
Elə bil ceyrandır düşüb kəməndə.
Ürəyim sən görən ürək deyil yox,
Donub şaxta vurmuş yanıq sinəmdə.

Deyirəm yanmayır məhəbbət quşum,
Bəlkə yağış dəyib, qanadı nəmdi.
Qəlbimdə sönməkdə olan qığılcım
Eşqinə binəmdir, sənə binəmdir.

1975

ÇARPIŞAM GƏRƏK

Gözəllər seyrini, seyrangahını
Dolaşam hər səhər, hər axşam gərək!
Qocalıq başımın alıb üstünü
Onunla əl-yaxa çarpışam gərək!

Kimlərin ki, ölüm vaxtsız keçirmiş
Həyat ocağını, ömür şamını.
Uzun yaşamaqla almalıyam mən
Vaxtsız ölənlərin intiqamını.

1977

HAMI YAŞAYIR

İstər matəm olsun, istər toy-düyün,
Gələcək o mənfur, gələcək bir gün.
Qapını astaca gəlib döyəcək,
Son yüz de, min de ki, "yaxamdan əl çək"
Şərti yox, fərqi yox, kim olur, olsun,
İstər fəryad etsin, saçını yolsun.

Əcəl qapısını gəlib döyəcək.
İstər alim olsun, istərsə şair.
Gör necə böyükdür, yaşamaq eşqi,
Bunu bilə-bilə hamı yaşayır.

1976

ÜRƏYİ VARMIŞ

– Niyə xəstələndin, əziz ürəyim,
De, səbəb nə oldu, səbəb kim oldu?
Bir müddət dinmədi... Sonra kədərli
Ürək cavab verdi: – Ürəyim oldu.

Qəfəsdə neçə il ömr eləyər quş?
Yetmiş ilə yaxın sənin sinəndə
Mən bir gün, bir saat dincəlmədim heç,
Döyündüm, döyündüm, yazığam mən də,
Çırpındım qəfəsə dönmüş sinəndə.

Gecəli-gündüzlü, həm də biaram,
Xoşuma gəlməyən yüklə yüklədin.
Gah dərin dərəyə endirdin məni,
Gah uca, boz daşlı dağa dikladin.

– Bəlkə mən qayğısız olmuşam, dedim, –
Bəlkə də sıxılıb öz yeri darmış?
Yox, onu yormuşam, bir indi bildim
Yazıq ürəyin də ürəyi varmış...

1977

YAŞAMAQ DA İGİDLİKDİR

Şikayətçi deyiləm mən
Nə ömürdən, nə də gündən
Bir əlli il yaşamışam,
Bu on il də üstəlikdir.
Cavan qaldım, deyin nədən?
Ömrü, günü uzun edən
Nə var-dövlət, nə cah-calal,
nə kitabdır, nə bilikdir.
Tapşırıqlar qucaq-qucaq,
Bunlar məni yormur ancaq.
Ömür var ki, qısadır çox,
Ömür də var minillikdir.
Yetmiş ili bu dünyada
Yaşamaq da igidlikdir.

1975

GÜNAH ONUN ÖZÜNDƏDİR

Dostum, incə barmaqların
Sədəflərin üzündədir.
Mənim meylim bir sazında,
Bir də şirin sözündədir.

Qarayazı meşəsində,
Cavan ovçu həvəsində,
Qulağım maral səsində,
Gözün ceyran izindədir.

Tarixi var hər daşın da,
Tərlanın on beş yaşında,
Bəzən qarlı dağ başında,
Bəzən Muğan düzündədir.

Baxan kimi sərraf gözün,
Təmtəraqlı yalan sözün
Canı yoxdur, dedin özün,
Məna sözün düzündədir.

Zaya getməz alın təri,
Bir gün bitər şah əsəri,
Arzuların, diləklərin
Hələ sənin gözündədir.

Söz şairin ürəyində,
Zor binanın dirəyində,
Güc pəhləngin biləyində,
Pəhləvanın dizindədir.

Heç əlinə alma əsa,
Yetmişində batma yasa,
Hər kim yüz il yaşamasa
Günah onun özündədir.

Bakı, Qazax, 1955

MƏNƏ ÖMÜR VERİN

Uzun yaşamağa filin haqqı var,
Onun qüdrəti çox, əməyi çoxdur.
Lakin, bu dünyada ala qarğalar,
Fildən çox yaşayır, fildən çox durur...

Əbədi olsaydı, – deyirəm bəzən –
Ömrümüz-günümüz, olmazdı dərdim.
Yaradan olsaydım canlıları mən,
Tülküyə bir günlük həyat verərdim.

Hökmdar istəsə toplayar hər gün
Tabaqla gövhəri, çanaqla dürrü;
Fəqət, bir böcəyi dərk etmək üçün,
Ona kafi deyil min insan ömrü.

Hər diləklə dolu qəlbin telində.
Nə fərəh az deyil, nə kədər azdır;
Kama yetmək üçün öz mənzilində,
Bir ömür, insana nə qədər azdır!..

Hər dərdin öz sirri, öz əlacı var,
Hər bitki məlhəmdir bir xəstəliyə.
Yenidən düşünsün böyük dühalar,
Ömrümüz, günümüz uzansın deyə!

Həkimlər, bir əlac düşünün yenə,
Böyükdür sərvəti, nemətі yerin.
A dostlar, çox deyil, çox deyil, mənə
Bir ala qarğanın ömrünü verin!

Çarəsiz bilməyin bu dərdimi siz,
Kiçik bir ümidim hələ var mənim:
Tutmasa əlimdən sizin əliniz –
Öz şerim qolumdan yapışar mənim...

9 yanvar, 1943

***

– Sən kimi axtarırsan.
Mənimlə nə işin var?
Əzrayılam, gəlmişəm...
– Acizləri get axtar!..
– Yox, gedəsi deyiləm.
– Mən insanam, başa düş!
Nə dəmirəm, nə daşam.
Ellərin ətəyindən,
İllərin yaxasından
Çox yaman yapışmışam.
Sən mənə yalvarmadın?
– Yox, ummadım kimsədən
Nə mərhəmət, nə kərəm.
Sənətimin gücüylə
Yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm!

1978

O HƏR ZAMAN YANACAQ

I

Gecədir...
Yamacları tutub çən, duman.
Dərədə çay kənarında,
Mürgüləyir köhnə bir dəyirman...

II

Bir kəndli
yolla ötüb keçdiyi zaman,
Sanki işıqlandı köhnə dəyirman.
Zülmət gecə gündüzə döndü,
uzaq və ucqar
dağ yolları
aydın göründü...
Nur çiləndi yolçunun gözünə,
Saxlayıb ayağını o
dedi öz-özünə:
– Görəsən bu yol kənarında
əli fənərli kimdir?
– Yanan fənər deyil, dedim –
mənim işıqlı qəlbimdir!
Yanır,
nə duman keçirə bilir onu,
nə də çən,
Yanır,
Gonclik illərindən bu günəcən –
Yanır xalqım üçün ancaq.
Mən ölsəm də
başım üstündə –
məzar daşım üstündə
O hər zaman yanacaq!!!

Bakı, 1954

Balaca dostlara

BABAN BELƏ DEMİŞDİ

(*Uşağın ad günündə*)

Əlvan çiçəklərlə bəzənir eyvan,
Bayram paltarını geyinir anan...
Qohumlar, qonşular iki-bir, üç-bir,
Əllori çiçəkli tökülüb gəlir.
Gül kimi fərəhlə açılır üzün,
Sənin ad günündür, ay oğul, bu gün.
Ömrünün bağında gül açır bahar,
Bunun da öz şövqü, öz cəlalı var...
Hər gələn tez nəzər yetirir sənə...
Hərə bir oyuncaq gətirir sənə.
Düzülür qarşında o hədiyyələr,
Balaca ayılar, atlar, dəvələr...
Gülür umul-umul şeytan gözlərin,
Üzürsən içində al çiçəklərin...

Nə kaman dincəlir, nə tar dayanır,
Fərəhli gözlərdə sevinclər yanır.
Aləmə sığmayır çalan-çağıran,
Süfrədə yeməklər dəyişir hər an...
"Al şərab" başlara etdikcə əsər,
Mehriban gülüşlər, şən qəhqəhələr,
Gəzib könülləri quş kimi yenə,
Yüksəlir göylərin dərinliyinə...
Qədəhlər boşalır, dolur yenidən,
Lakin ağır-ağır düşünürəm mən...

Məclis ahəngini bir az dəyişir,
Qonaqlar söz alıb danışır bir-bir:

Dünyada hər kəsdən şirindir övlad,
Bizim xalqımızın fəxridir bu ad
Əziz "Babək" adı...
– Mübarək olsun!
Sənin sağlığına!
xoşbəxt ol, quzum!
Qədəhlər boşalır, dolur yenidən
Lakin ağır-ağır düşündükcə mən,
Görürəm qarşımda bir heykəl durur –
Babamdır, minillik alnında qürur.
Bayaqdan dayanıb seyr edir bizi...
Mənalı-mənalı süzüb məclisi,
Üzünü körpəyə tutur ixtiyar:
– Mənim də bir kiçik nəsihətim var:
Quzum, bu gün sənin ad günündür, ad...
Nə olar? Xoşbəxt ol, boya-başa çat!..
Lakin, fayda yoxdur biz qoyan addan,
Özün hünər göstər, özün ad qazan!..

SƏHƏRİN KEŞİKÇİLƏRİ

Bəxtiyar balalar, oynayın, gülün, –
Xalqın sevincidir gülüşləriniz.
Bir də qaşlarınız çatılmayacaq,
Durmuşuq ağ günün keşiyində biz.

Körpə fidanları becərməsəydi,
Bağban bağ üzünə həsrət qalardı.
Uşaqlar, cavanlar yetişməsəydi,
Yəqin ki, insanlıq tez qocalardı...

Yeni dünya qurdu ata-babanız –
Bu sözün mənası dərindir, dərin!
Çox var-dövlət qoydu...Sabah yəqin ki,
Sahibi sizsiniz bu nemətlərin!

Oxumaq, öyrənmək, yaratmaq olsun,
Hər an vəzifəniz, hər an işiniz.
Sizə biz keşikçi olduqca bu gün,
Sabah siz özünüz keşikçisiniz!

Gedin, mətin olsun addımlarınız,
Hər saat irəli, hər gün irəli!
Günəşi lap erkən salamlayacaq,
Qızaran səhərin keşikçiləri!..

QIZILGÜL OLUN

Qaratikan kolu uca olmayır,
Onun çinar kimi görkəmi yoxdur.
Lakin, hər "nizəsi", hər "qalxanilə"
O öz keşiyində çox yaman durur...

Batsa da tikanı ələ, ayağa.
İnsafla ona da haqq verək bir az! –
Kimsə toxunmasa, kimsə dəyməsə
Qaratikan belə, tikanlı olmaz!..

"Qaratikan olun" – demirik, əsla,
Ayrıdır büsbütün bizim fikrimiz –
Bacarın ətirli qızılgül olun,
Tikansız olmayın lakin bir an siz!..

NƏ İSTƏSƏ UŞAQLAR BİZİM BAĞÇAMIZDA VAR

Bağçadır bir yanımız,
İçi güllü, çiçəkli.
Bir yanda bostanımız,
Yemişli, xəlvirəkli.
Bağçamız aşıb daşır,